HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

28 fevral 2017-ci il
№004 (42)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

ANKARA, BAKI VƏ TBİLİSİ MAL DÖVRİYYƏSİNİ 20 MİLYARD DOLLARA ÇATDIRACAQ

Fevralın 17-də İstanbulda Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Gürcüstanın Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə V Azərbaycan-Türkiyə-Gürcüstan biznes-forumu keçirilib.

Türkiyə, Azərbaycan və Gürcüstan üçtərəfli mal dövriyyəsini 20 milyard dollara çatdırmaq niyyətindədir.

Anadolu agentliyinin məlumatına görə, bu barədə Türkiyə iqtisadiyyat nazirinin müavini Fatih Metin V Türkiyə-Azərbaycan-Gürcüstan biznes-forumunun açılış mərasimində bildirib.

Nazir müavini üç ölkənin bu məqsədə yaxın gələcəkdə nail ola biləcəyinə ümidvar olduğunu vurğulayıb.

Fatih Mətin qeyd edib ki, üç ölkə sahibkarlarının görüşü təkcə iqtisadiyyatın və ticarətin inkişafına təkan verməyəcək, həm də mədəni və sosial sahədə onların yaxınlaşması nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olacaq.

O, üçtərəfli biznes-forumun maneələrin aradan qaldırılması və problemlərin həll olunmasına yardım edəcəyini də vurğulayıb.

AZƏRBAYCAN DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏHBƏRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev fevralın 27-də Gürcüstan paytaxtına rəsmi səfər edib.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəis müavini, general-leytenant Fərhad Tağızadə səfərlə bağlı bildirib ki, Azərbaycan nümayəndə heyətinin Gürcüstana səfəri bu ölkənin Sərhəd Polisi rəhbərliyinin dəvəti əsasında reallaşdırılıb. Səfər çərçivəsində general-polkovnik Elçin Quliyev Gürcüstanın daxili işlər naziri Georgi Mqebrişvili, Sərhəd Polisinin və patrul xidmətinin rəisləri ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədlərinin mühafizəsi sahəsində əməkdaşlığın perspektivləri, təcrübə mübadiləsi, bu sahədə normativ-hüquqi baza, sərhəd keçid məntəqələrində vəziyyət, beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, narkotiklərin qaçaqmalçılığı, sərhəd təhlükəsizliyinə təhdidlər və s. məsələlər müzakirə olunub. Hər iki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlığa dair memorandumun imzalanması barədə razılıq əldə olunub.

F.Tağızadə görüşlərdə sərhədlərin delimitasiyası və demarkasiyası məsələlərinin də müzakirə edildiyini vurğulayıb.

Yayılan məlumatda səfəri zamanı Elçin Quliyevin Heydər Əliyevin abidəsi önünə əklil qoyduğu və M. F. Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyinə baş çəkdiyi də bildirilib.

2 ÇOXDİLLİLİK ANA DİLİNDƏN KEÇİR

3 TARİXİMİZİN QANLI SƏHİFƏLƏRİ

4 ERMƏNİSTANIN ÜÇÜNCÜ QARABAĞ SAVAŞINDAN GÖZLƏNTİLƏRİ

5 CƏMİYYƏTİMİZİN İNSANLIQ OĞRUSU – "ÇAYXANA" MƏDƏNİYYƏTİ

6 KEÇMİŞİ MÜHAKİMƏ EDƏRƏK GƏLƏCƏK QURMAQ OLARMI?

7 KİTAB OXUMAQ BİR QABİLİYYƏTDİR

AVROPA BİRLİYİ ŞURASI GÜRCÜSTAN ÜÇÜN VİZASIZ REJİM HAQQINDA QƏRARI TƏSDİQLƏYİB

AB Şurası fevralın 27-də Gürcüstan və AB arasında vizasız rejimin həyata keçirilməsinə dair qərarı təsdiqləyib. Xəbəri AB-nin mətbuat xidməti yayıb.

Məlumatda deyilir: "27 fevral 2017-ci ildə Şura AB-yə səfər edən Gürcüstan vətəndaşları üçün 180 gün ərzində 90 gün müddətinə vizanın liberallaşdırılmasına dair qərar qəbul edib".

İndi AB Şurasının və Avropa Parlamentinin başçıları qəbul edilmiş qərarı imzalamalıdırlar. Onun martın 1-də imzalanması gözlənilir. Sonra sənəd AB-nin rəsmi jurnalında dərc ediləcək və vizasız rejimin dayandırılması mexanizmi ilə birlikdə 20 gün sonra qüvvəyə minəcək.

9 mart 2016-cı ildə Avropa Komissiyası Avropa Parlamentinə və AB Şurasına Gürcüstan üçün vizanın liberallaşdırılmasına dair təklif vermişdi. Dekabrın 20-də AB-yə üzv dövlətlər Gürcüstanla vizasız rejimə tərəfdar olduqlarını bildirdilər. Avropa Parlamentinin vətəndaş azadlığı komitəsi yanvarın 12-də Gürcüstan üçün vizanın sadələşdirilməsini dəstəklədi

2 fevral 2017-ci il tarixində isə Avropa parlamenti Gürcüstan vətəndaşlarına vizasız rejimin tətbiq olunmasına dair qərar çıxardı.

GÜRCÜSTAN VƏ TÜRKİYƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRƏCƏK

Gürcüstan Türkiyə üçün mühüm qonşu və strateji tərəfdaşdır. Bu sözləri fevralın 18-də Münhendə keçirilən beynəlxalq təhlükəsizlik konfransı çərçivəsində gürcü həmkarı Georgi Kvirikaşvili ilə görüşündə Türkiyənin Baş Naziri Binəli Yıldırım söyləyib.

Gürcüstan Baş Nazirinin mətbuat xidmətinin məlumatına görə, görüşün əsas mövzusu müxtəlif sahələrdə müsbət dinamika ilə xarakterizə olunan ikitərəfli gürcü-türk əməkdaşlığı olub.

Məlumatda bildirilir ki, baş nazirlər ikitərəfli iqtisadi əlaqələrin daha da fəallaşdırılmasının gərəkliliyini vurğulayıblar, habelə beynəlxalq əhəmiyyətli enerji layihələrinin, o cümlədən də "cənub dəhlizi" istiqamətində layihələrin uğurla həyata keçirilməsi üçün əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildiriblər.

Binəli Yıldırım Georgi Kvirikaşvilini mayın 22-də İstanbulda keçiriləcək Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 25 illiyinə həsr olunan dövlət başçılarının sammitinə dəvət edib.

GÜRCÜSTANDA İQTİSADİ AZADLIĞIN SƏVİYYƏSİ YÜKSƏLİB

Beynəlxalq Heritage Foundation Təşkilatının illik araşdırmalarına əsasən, Gürcüstan öz iqtisadi azadlıq indeksini yaxşılaşdırıb və yenidən "az-çox azad" ölkələr arasındadır.

İqtisadi azadlıq İndeksinə görə, ötən illə müqayisədə Gürcüstan öz mövqeyini 3,4 bənd yaxşılaşdıraraq 76 balla dünyada 13-cü, Avropada 5-ci yeri tutub.

186 ölkəni əhatə edən araşdırmada qeyd olunur ki, Gürcüstan hakimiyyəti iqtisadi fəaliyyətin liberallaşdırılmasında güclü impulsu qoruyub saxlaya bilib.

İndeksə görə, ölkənin dövlət borcları və büdcə kəsiri yenə də nəzarət altındadır.

Sənəddə özəlləşdirmənin geniş miqyasının artması, korrupsiyaya qarşı səylərin nəzərəçarpacaq dərəcədə olduğu vurğulanıb.

Tədqiqatda müsbət göstəricilərə baxmayaraq, gələcəkdə ölkənin iqtisadi inkişafını təmin edən məhkəmələrin effektivliyini və müstəqilliyini yüksəltmək üçün daha dərin və sürətli islahatların həyata keçirilməsinin vacibliyi qeyd olunub.



ÇOXDİLLİLİK ANA DİLİNDƏN KEÇİR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

Dilin hər bir xalqın tarixində, mədəniyyətində, milli özünüdərkində oynadığı müstəsna rol barədə günlərlə danışmaq, müxtəlif yönlərdən dartışmalar aparmaq, çeşidli fikirlər ortaya qoymaq, bir-birini tamamlayan və ya inkar edən müddəalar səsləndirmək mümkündür. Hər bir xalqın ana dili onun milli kimliyini, milli varlığını, digər etnoslardan fərqini, özünəməxsusluğunu təsdiqləyən nadir bir fakt, unikal bir hadisədir. "Dil xalqın kimliyini təsdiqləyən pasportdur" kimi standart və çeynənmiş bir fikri səsləndirməkdən də özümü saxlaya bilmirəm. Belə bir girişdən sonra nədən bu mövzu barədə danışmaq istəyimin səbəbini söyləmək məqamının yetişdiyi düşüncəsindəyəm. Bu günlərdə sırf təsadüf nəticəsində azərbaycandilli məktəblərimizin gürcü bölmələrində təhsil alan şagirdlərə ana dilinin tədris olunmadığını öyrənməyim bu məsələyə münasibət bildirməyim üçün bəhanə oldu.

Yadımdan çıxmamış onu da qeyd edim ki, azərbaycandilli məktəblərin gürcü bölmələrində təhsil alan şagirdlərin yüz faizi də bizim uşaqlardır, türk balalarıdır. Gürcü bölmələrində təhsil alan şagirdlərin əksəriyyətinin "Əli aşından da, Vəli aşından da olduğunu" hələlik bir kənara qoyub, məsələnin bu tərəfinə başqa bir yazıda münasibət bildirməyin daha doğru olduğu qənaətindəyəm. Öncədən deyim ki, gürcü bölmələrində təhsil alan cocuqlarımız üçün Milli Tədris proqramında ana dili dərsinin keçilməsi nəzərdə tutulmayıb. Əldə etdiyim məlumata görə, məktəb rəhbərləri öz insaflarına bu bölmələrdə həftədə 1-2 saat Azərbaycan dili fənninin tədrisinə şərait yaradırlar. Sağ olsunlar, heç yoxdan, bu da qənimətdir. Amma, bəylər, bu yetərlidirmi? Şagirdin öz ana dilinin qayda-qanunlarını, qrammatikasını, orfoqrafiyasını, canım sizə desin, fonetikasını, morfologiyasını, cikini-bikini öyrənməsi üçün bu 1-2 saat kifayət edərmi? Mübahisə etmədən deyim ki, mən buna inanmıram. İnananlar varsa, inanmaqda davam etsinlər, heç kim onlara mane olmur.

Bilirəm mənim bu fikirlərimi başqa cür yozanlar, tərsinə anlayanlar da tapılacaq. Məni skeptiklikdə, bədgümanlıqda suçlayanlar olacaq. Olsun. Bəri başdan deyim ki, mən çoxdilliliyin tərəfdarıyam. Bir insanın öz ana dilindən savayı – altını cızaraq söyləyim ki, ana dili əsasdır, bazadır – bir neçə dil bilməsini, poliqlot kimi yetişməsini və özünüifadə etməyi bacarmasını alqışlayıram. Təkrar da olsa, pedantcasına deyirəm: ana dilini unutmaq hesabı burada işləməməlidir. Hamının bildiyi bir fikri də burada təkrarlamadan keçməyi özümə rəva bilmirəm: "İnsan nə qədər dil bilərsə, o qədər insandır". Mən övladlarımın, şagirdlərimin, oxucularımın çox dil bilməsini ikiəlli dəstəkləyirəm. Onların ölkəmizdə yaşayan xalqların – gürcülərin, abxazların, rusların, osetinlərin və hətta ermənilərin dilini bilmələrində təhlükəli heç bir zad görmürəm. Gürcü dilinin dövlətimizin rəsmi dili olmasını söyləməyim belə yersiz görünə bilər. Hər bir milli azlığın, o sıradan da bizim bu dili bilməmiz vacibdir.

Amma məsələnin bir "əmməsi" olmasaydı mən bu məsələni ortaya çıxartmaz, lap elə üstündən sükutla keçərdim. Artıq yuxarıda söylədiklərimdən də bəllidir ki, gürcü dilinin qeyri-gürcülərə, o cümlədən də bizlərə öyrədilməsində dəhşətli naqisliklər mövcuddur. Ən birincisi və ən ümdəsi, gürcü bölməsində təhsil alan azərbaycanlı (əslində türk) balalarını biz nə gürcü cəmiyyətinə, nə də özümüzə qazandıra bilməyəcəyik. Onlar nə gürcü kimi, nə də azərbaycanlı kimi özlərini doğrultmurlar və doğrulda da bilməyəcəklər. Öz ana dilini bilməyən şəxsin bütöv şəxsiyyət kimi, yararlı vətəndaş kimi yetişəcəyi sual altındadır. Əgər bu proses vaxtında dayandırılmasa, səlahiyyətli orqanlar və şəxslər tərəfindən bu prosesə vaxtında müdaxilə edilməsə biz manqurtlaşmış, dünyagörüşü mutasiyaya uğramış bir kütlə ilə qarşı-qarşıya qalacağıq.

Bu problemdən itkisiz çıxmaq istəyiriksə, bu problemi "nə şişi, nə kababı yandırmadan" çözmək niyyətindəyiksə dünyada mövcud olan qabaqcıl təcrübələrdən istifadə etməklə ictimai müzakirələr keçirməliyik, Təhsil və Elm Nazirliyi qarşısında məsələnin ciddiliyini qabartmalıyıq. Seçdiyimiz deputatlar vasitəsilə məsələni ölkə parlamentinin gündəminə daşımalıyıq. Hətta Azərbaycanın ölkəmizdəki səfirliyini düşdüyümüz durumla bağlı xəbardar edib, məsələnin çözülməsində onun da iştirakına nail olmalıyıq.

Dil bir canlı orqanizmdir. Dilə təkcə insanlar arasında ünsiyyət vasitəsi, məlumat mübadiləsi üçün vasitə kimi baxmaq məsələyə düzgün yanaşmamamıza nədən ola bilər. Dil fərdin, toplumun, xalqın hisslərini, duyğu və həyacanlarını, ruhi aləmində baş verən təbəddülatları başqalarına ötürməsində, çatdırmasında universal və əvəzolunmaz bir vasitədir. İstənilən xalqı tarix səhnəsindən çıxarmaq üçün onun dilini məhv etməkdən başlamaq ən sadə və sınanmış bir yöntəmdir.

GYMD-İN KONFRANS ZALINDA XOCALI SOYQIRIMI İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB

Fevralın 18-də Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı və təşəbbüsü, Azərbaycanın Gürcüstandakı səfirliyinin və Azərbaycan Respublikası Gəncliyə Yardım Fondunun dəstəyi ilə Xocalı soyqırımının 25 illiyinə həsr olunmuş tədbir təşkil olunub.

Tədbirin aparıcısı Hacı Bəkiroğlu tədbir haqqında məlumat verdikdən sonra, Xocalıda qətlə yetirilənlər bir dəqiqəlik sükutla yad edilib.

Sonra Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev qonaqları salamlayaraq diqqəti iki əsas məsələyə yönəldib. O, öz çıxışında bəzi vətəndaşlarımızın "bu cür tədbirlər bizi niyə maraqlandırsın, bizlər ki, Gürcüstan vətəndaşıyıq" deyənlərə cavab verərək, Gürcüstan vətəndaşı olsaq da bir azərbaycanlı milliyətinə sahibik və bu faciənin türk millətinə qarşı edilmiş bir cinayət olduğunu vurğulayıb.

Çıxış üçün söz alan Qardabani rayon icra başçısının müavini Dünyamalı Hacıyev isə əsrin faciəsi olan Xocalı qətliamının dünya səviyyəsində lazımi hüquq dəyərini almasının gərəkliliyini və günahkarların cəzalandırılmasının lazım olduğunu vurğulayıb.

Faciə ilə bağlı geniş məlumat verən Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin nümayəndəsi Elçin Məmmədov Gürcüstanda belə tədbirlərin təşkil olunmasından böyük məmnuniyyət hissi duyduqlarını dilə gətirib.

Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusibov isə düşmənə qarşı birlikdə olmağın vacibliyini vurğulayıb.

Gürcüstan Müsəlmanları İdarəsinin Müftisi hacı Yasin Əliyev isə öz çıxışında şəhidlərə Allahdan rəhmət diləyib və onlar üçün dua edib.

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin Gənclər Şöbəsinin sədri Nərgiz Əliyeva isə bu cür tədbirlərin təşkilatlar arasında əməkdaşlıq olaraq təşkil olunmasının vacibliyini vurğulayıb.

Daha sonra Azərbaycan Respublikasından dəvət olunmuş Türk İslam Araşdırmaları Mərkəzi İctimai Birliyinin sədri dr. Telman Nüsrətoğlu mövzuya daha geniş bir çərçivədən yanaşaraq, əslində ermənilərin tarix boyu davam edən türk düşmənliyini gözlər önündə sərgiləyib və mövzuya tarixi nöqteyi-nəzərdən yanaşıb.

Onu da qeyd edək ki, tədbirdə dövlət nümayəndələri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, müəllimlər və tələbələr də iştirak ediblər.

TBİLİSİDƏ "MÜNAQİŞƏLƏRİN PERSPEKTİVLƏRİ" MÖVZUSUNDA ELMİ KONFRANS KEÇİRİLDİ

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin nəzdindəki Qafqazşünaslıq İnstitutunun təşəbbüsü və təşkilatçılığı ilə "Münaqişələrin perspektivləri" mövzusunda elmi konfrans keçirilib. Xəbəri APA-nın Gürcüstan bürosu yayıb.

Tədbiri universitetin prorektoru Mixail Sxenkeli açaraq mövzunun aktuallığı barədə fikirlərini bildirib. Sonra Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Azərbaycan Milli Məclisinin üzvü Elman Məmmədov, Qafqaz məsələləri üzrə ekspert Mamuka Areşidze, Qafqazşünaslıq İnstitutunun rəhbəri Tsira Baramidze, professor Liya Axaladze, AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşı Faiq İsmayılov və başqaları çıxış edərək Cənubi Qafqazdakı Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin həlli yolları haqqında fikirlərini ifadə ediblər.

Professor Sardion Zedelaşvili münaqişənin həllinin sülh və qarşılıqlı anlaşma şəraitində mümkün olduğunu vurğulayıb: "Rusiyaya Azərbaycanda sabitlik əl vermir. Xocalı soyqırımı Rusiyanın törətdiyi soyqırımıdır. BMT və AB bölgədə heç bir iş görə bilmir. Hələlik danışıqların perspektivi görünmür".

SOVET ORDUSU İLƏ DÖYÜŞLƏRDƏ HƏLAK OLMUŞ DÖYÜŞÇÜLƏRİN ŞƏRƏFİNƏ ABİDƏ UCALDILDI

Gürcüstan Prezidenti Georgi Marqvelaşvili fevralın 24-də David Ağmaşenebeli adına Milli Müdafiə Akademiyasının həyətində 1919-1921-ci illərdə Sovet Ordusu ilə döyüşlərdə həlak olmuş qəhrəmanların şərəfinə ucaldılmış memorialın açılışını edib.

Abidənin üzərində Gürcüstan Demokratik Respublikası ordusunun baş komandanı general Georgi Kvintadzenin sözləri həkk olunub: "Qəhrəmanlar, eşq olsun sizə! Qoy hər zaman qələbə sizinlə olsun!".

25 fevral tarixi sovet işğalı Günü kimi rəsmi olaraq Gürcüstan parlamentinin qərarı ilə 21 iyul 2010-cu ildə təsis olunub. Həmin vaxtdan Gürcüstanda hər il sovet işğalına həsr olunmuş tədbirlər həftəsi keçirilir.

ƏLAVƏ DƏYƏR VERGİSİNDƏ "AVANS" VERGİTUTMA OBYEKTİ HAQQINDA

"Verginin idarə edilməsi" haqqında Gürcüstan Maliyyə nazirinin 2010-cu ilin 31 dekabr sərəncamında Gürcüstan Maliyyə nazirinin 2017-ci ilin 15 fevral 49 saylı sərəncamına əsasən aşağıda göstərilən dəyişiliklər həyata keçirilmişdir.

Əlavə dəyər vergisinin vergitutma obyekti malların təqdim edilməsinə/xidmətin göstərilməsinə qədər öncədən əldə olunan avans və ya avans qiymətinin müəyyən hissəsidir. Verginin tutulması anı isə avansın əldə olunması anıdır. Xatırladaq ki, bu qanun dəyişikliyinə qədər əlavə dəyər vergisinin vergi tutma anı bilavəsitə malların təqdim edilməsi/xidmətin göstərilməsi anı hesab olunurdu.

Yuxarıda göstərilənlərə görə malların təqdim edilməsindən/xidmətin göstərilməsindən əldə edilən məbləğ və ya məbləğin müəyyən hisəsi avans sayılır. Əgər

1. təqdim olunacaq mal/ göstəriləcək xidmət əvvəlcədən müəyyən edilmişdirsə;
2. təqdim olunacaq malın/ göstəriləcək xidmətin sayı/həcmi əvvəlcədən müəyyən edilmişdirsə;
3. təqdim olunacaq malın/ göstəriləcək xidmətin dəyəri əvvəlcədən müəyyən edilmişdirsə;
4. təqdim olunacaq malın/ göstəriləcək xidmətin vergitutma obyekti olması və ya olmaması əvvəlcədən müəyyən edilibsə.

Əgər yuxarıda göstərilən şərtlər yerinə yetirilməzsə, ancaq öncədən tərəflər arasında təqdim olunan mala/ göstərilən xidmətə görə avans verilməsi barədə razılıq olubsa və elektron faktura yazılıbsa, o halda əlavə dəyər vergisinin tutulma anı avansın əldə olunması anıdır.

Əlavə dəyər vergisi ödəyicisi olan sahibkar təqdim olunacaq mala/ göstəriləcək xidmətə görə ödənilən əlavə dəyər vergisini qaytara bilər.

Bu qayda Gürcüstan vergi məcəlləsinin 161-ci maddəsinin "a.b.b" və "a.b.q" bəndlərinə aid deyil.

Sonda bir yeniliyi də nəzərinizə çatdırmaq istəyirik, 17.02.2017 tarixindən Vergilər nazirliyinin elektron portlına yeni funksiyalar əlavə olunub, artıq bu portal təkcə sahibkarlar üçün deyil, fiziki şəxslər üçün də faydalı olacaq. Beləliklə portalda qeydiyyatdan keçən fiziki şəxslər vergi orqanında özləri haqda mövcud olan bütün informasyalara baxaraq, onlara nəzarət edə biləcəklər.

Hazırladı: ELNUR

MARNEULİDƏ İCTİMAİ MÜZAKİRƏ KEÇİRİLİB

Marneuli İcra Hakimiyyətində "Marneuli Bələdiyyəsində tullantıların emalı müəssisəsinin inşaası və istismarının ətraf mühitə təsirini dəyərləndirən hesabat" ın ictimai müzakirəsi təşkil olunub.

Görüşdə yerli özünüidarəetmənin, qeyri-hökumət təşkilatlarının, KİV nümayəndələrinin, "Gürcüstanın bərk tullantıların idarəsi şirkəti" MMC-nin rəhbərləri və mövzu ilə maraqlanan digər şəxslər də iştirak edirdilər.

Bu layihə Kvemo Kartlinin beş – Marneuli, Dmanisi, Bolnisi, Tetriçkaro və Zalqa bələdiyyələrində Avropa standartlarına uyğun tullantı müəssisəsinin tikintisini və həmin bələdiyyələrdə tullantıların toplanması və idarəsi prosesini daha da mükəmməlləşdirməyi nəzərdə tutur.

Tullantıların emalı müəssisəsinn tikintisi Marneuli Bələdiyyəsində, daha dəqiq desək, Yağılca ərazisində planlaşdırılır.

Müzakirə zamanı bərk məişət tullantıları poliqonlarının idarə edilməsi məsələsinin Gürcüstanın milli, bölgə və yerli səviyyədə mühüm problemlərindən biri olduğu qeyd edilib.

Gürcüstan hökuməti bərk məişət tullantılarının idarəsi məsələsini ciddi problem kimi görür və bu məqsədlə mövcud sistemin islahatına başlayıb.

Layihə Avropa Yenidənqurma və İnkşaf Bankı və Gürcüstanın Regional İnkşaf və İnfrastruktur Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Turac İBRAHİMOVA

GİZLİ DİNLƏMƏ İLƏ BAĞLI QANUNVERİCİLİK SƏNƏDİ QƏBUL EDİLDİ

Gürcüstan parlamenti gizli istintaq hərəkəti ilə bağlı qanunvericilik paketini ikinci oxunuşda qəbul edib. "Operativ-texniki agentlik haqqında" əsas qanun layihəsinə 84 deputat tərəfdar olub, 5 deputat isə əleyhinə səs verib.

Buna qədər isə müxalifətin təqdim etdiyi alternativ qanunvericilik təklifi səsə qoyulsa da, böyük səs çoxluğu ilə qəbul edilməyib.

Parlament fevralın 24-də gizli istintaq hərəkəti ilə bağlı qanunvericilik paketini plenar iclas formatında müzakirə edib, müzakirələr həmin gün də başa çatıb.

Azlıq qanun layihəsinin müzakirələrində iştirak etməyib. İş ondadır ki, ikinci oxunuşda müzakirələr maddələr üzrə yox, fəsillər üzrə keçirilib, bu isə müxalifətin etirazına səbəb olub.

GÜRCÜSTANDA PLASTİK TORBALAR QADAĞAN EDİLİR

Ətraf mühitə zərər vurduğuna görə Gürcüstanda plastik torbaların istifadəsi tədricən qadağan oluna bilər.

Avropa Birliyi yaxın illərdə yüngül polietilen torbaların istifadəsini ciddi şəkildə məhdudlaşdırmaq niyyətindədir. AB-yə üzv dövlətlər 2025-ci ildə hər bir sakininin il ərzində 90 torbadan artıq istifadə etməməsinə nail olmalıdırlar.

Gürcüstanda da plastik qabların istehsalı, idxalı və istifadəsi ilə əlaqədar müvafiq normativ aktın layihəsi hazırlanıb.

Verilən məlumatda bildirilir: "Normativ akt plastik qabların tədricən qadağan olunmasını və onların kağız paketlərlə, Avropa standartlarına uyğun dəfələrlə istifadə olunan çanta və torbalarla əvəz olunmasını nəzərdə tutur".

Bu sənədin layihəsini Gürcüstan ətraf mühitin mühafizəsi və təbii ehtiyatlar nazirinin müavini Yekaterina Qriqalava təqdim edib. Bu məqsədlə bu cür məhsullardan fəal şəkildə istifadə edən plastik qab istehsalçıları və ticarət obyektlərinin nümayəndələri nazirliyə dəvət olunublar.

Nazir müavini görüşdə plastik qabların ətraf mühitə mənfi təsiri və AB ölkələrinin problemin həlli üçün gördükləri işlər barədə məlumat verib.

TARİXİMİZİN QANLI SƏHİFƏLƏRİ

Hacı BƏKİROĞLU
kafkasli@mail.ru

İnsan cəmiyyətinin yaşayışları, döyüşləri, meydana gətirdikləri mədəniyyətlər tarixi hadisələr arasında yer alır və tarix elminin mövzusuna çevrilir.

Zaman və yer göstərilərək araşdırılan tarix hadisələrində, zaman ölçüsü olaraq il, ay və gün istifadə edilir. Hadisələrin bir-birinə qarışmaması, bir hadisənin başqa bir hadisəyə təsirinin aydın ola bilməsi üçün bu hadisələrin zaman sırasına görə təşkil edilməsi əsasdır. Zamanla əlaqədar bu şərtlər içində, yerə verilən əhəmiyyət də böyükdür.

Tarixin meydana gəlməsi, insanların dünya üzərində yaşamağa başlamasından çox sonradır. Bu da ancaq, yazının kəşfi ilə başlamışdır. Yazının tapılması, zamanımızdan ancaq 5 – 6-min il əvvəl olduğuna görə, tarixin başlaması, müasir insanın aşağı-yuxarı ömrü olaraq qəbul edilən 50 000 ilə görə çox yeni sayılır.

İnsan bəşəriyyət tarixini yazmağa başladığından qanlı səhifələrə imza atıb. Elə Həzrət Adəmin övladları Habil və Qabil bu səhifələrin ilk yazarlarıdırlar. Bəşər onların hidayəti üçün göndərilən peyğəmbərləri haqsız yerə öldürməklə, düz sözü deyənləri darağacına götürməklə, var-dövlət, nüfuz və mənfəət üçün dəhşətli müharibələr törətməklə, qan axıtmaqla "insan" adına ləkə vurmaqda israrla davam edir.

Bəşəriyyət öz mənfur niyyəti üçün hətta Peyğəmbərinin: "Hüseyn məndəndir, mən Hüseyndən. O, gülsə mən gülərəm, o, ağlasa, mən ağlaram" deyərək tərif etdiyi fədakar insanı belə qətlə yetirməkdən çəkinmədi. Bəşəriyyət ən qanlı səhifələrini tarixinin yaddaşına yazdı. Axıtdığı qanlara doymadı, yorulmadı. Yenə də, yenə də tökdü günahsız qanları...

Bəşəriyyətin murdar niyyəti naminə qana susaması bu gün də dayanmayıb. Biz Kərbəlanı Qəzzada gördük. Biz Kərbəlanı İpaqda gördük. Biz Kərbəlanı Xocalıda gördük.

Qeyd etdiyimiz kimi tarix boyu bir çox müharibələr olmuşdur. Bu müharibələrdən ən dəhşətlisi isə hər hansı bir millətin, xalqın kökünü kəsmək, yer üzündən silmək məqsədini güdən müharibələrdir. Ən pisi də odur ki, soyqırımları törədənin özü ustalıqla maskalanır, öz əməlini, vəhşiliyini ört-basdır edir. Dünya ictimaiyyətini çaş-baş salır, əsrlərlə öz məkrli siyasətlərini yürüdür, nəsilləri bu ruhda tərbiyə edir. Məqam gəldikdə cildini dəyişə bilir, haqlını "günahkar" kimi qələmə verməyə çalışır, özünə tərəfdarlar tapır.

Bu soyqırımların ən başda gələnlərindən biri də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımıdır.

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Nə yazıq ki, bu faciə hələ də dünya miqyasında öz lazımi qarşılığını tapmayıb və günahkarlar cəzalandırılmayıb.

Ədalət deyə bağıran dünya bu faciəyə ədalətsiz yanaşdığı müddətcə

Nə yaxşı ki, bəşər təkcə bu zalım "insan"lardan ibarət deyil. Bəşəriyyət öz tarixində - üzünə qumlar tökülən, daşlanarkən belə "Allahım onları bağışla, onlar nə etdiklərini bilmirlər" deyən rəhmət təcəssümü olan bir peyğəmbərin, haqq uğrunda zülmə boyun əyməmək naminə öz canını, bələkdəki körpəsini belə fəda verən Hüseynin eşq şəhadətini şanlı, şərəfli səhifələrin, izlərin şahidi oldu.

Mənfur niyyətli insanlar nə qədər güclü görünsələr də, haqq uğrunda daim vuruşan lətif hisslərin qarşısında məğlubdurlar.

Biz də həyat yolunda yeriyərkən addımlarımızı haqq uğrunda irəliləyən kəslərin izindən addımlayaraq getməliyik ki, xalqa, millətə bir faydamız olsun, adımız tarixin səhifələrinə o mənfur, zalım şəxslərin sırasında yazılmasın.

ERMƏNİSTANIN ÜÇÜNCÜ QARABAĞ SAVAŞINDAN GÖZLƏNTİLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

Son günlərdə Ermənistan ekstremist qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ona bitişik rayonlarda hərbi əməliyyatların bərpası bizi bu mövzuya yenidən qayıtmağa vadar edir. Bu hərbi toqquşmaların XX əsrin sonunda birbaşa indiki Ermənistan prezidenti Serj Sarksiyan rəhbərliyi ilə erməni faşistləri tərəfindən həyata keçirilmiş Xocalı soyqırımı tarixi ilə üst-üstə düşməsi ayrıca önəm daşıyır. Bu nöqteyi-nəzərdən indiki vəziyyətdə cəbhə bölgəsində vəziyyətin Ermənistan tərəfindən eskalasiyasının iki başlıca səbəbini bir-birindən fərqləndirmək lazımdır.

İlk olaraq, gec də olsa, dünya birliyi Xocalı soyqırımını bir erməni vəşiliyinin təzahürü kimi qəbullanmağa başlamışdır. Artıq, erməni lobbisinin qabaqçıl yuvalarından sayılan ABŞ-ın 20-dən çox ştatı və bir sıra dünya ölkələri parlament səviyyəsində Xocalı soyqırımını insanlığa qarşı işlədilmiş bir suç hadisəsi olaraq tanımışdır. 25 il əvvəl baş vermiş genosid aktını Ermənistan prezidenti Serj Sarksiyan da dolayı yolla təsdiqləyir. Beləki, o, müsahibələrinin birində vurğulamışdır ki, "Xocalıda baş verənlər zərurətdən doğmuşdur. Çünki, azərbaycanlılar elə fikirləşirdilər ki, ermənilər dinc və əli yalın mülki şəxslərə atəş açmaz. Odur ki, biz bu sindromu sındırdıq və bu vacib idi".

Təmas xəttində vəziyyətin gərginləşdirilməsinin ikinci səbəbini Ermənistanda yaxınlaşan seçkilərlə əlaqləndirmək olar. Məlum olduğu kimi, cari il aprel ayının 2-də Ermənistanda növbəti parlament seçkiləri keçiriləcəkdir. Daxili ictimayyətin tənqidləri və etirazları nəticəsində nüfuzdan düşən Ermənistanın hazırkı iqtidarı seçkilərdə əlavə "səs bonus"ları əldə etmək üçün epizodik "uğur"lara ehtiyac duymaqdadır. Məlum olduğu kimi, kriminal və korrupsioner erməni dövlət məmurları bu ölkənin ictimayyəti tərəfindən geniş etiraz aksiyalarına məruz qalmaqdadır. Hətta, dəfələrlə hüquq müfafizə orqanları ilə etitazçılar arasında toqquşmalar da baş vermişdir. Ona görə də, erməni hakimiyyətinin niyyəti cəbhə bölgəsində vəziyyəti gərginləşdirərək məhəlli üstünlüklər qazanmaq və daxili auditoriyanı çaşdırmaqdan ibarətdir. Bundan başqa, iqtisadi börhandan təngə gələn ermənilərin hər gün keçdikçə iqtidara inamsızlıqları da bir o qədər dərinləşməkdədir. İşğalçı siyasət nəticəsində regionun bütün translahiyələrindən təcrid olunmuş Ermənistan öz vətəndaşlarının hakimiyyətə olan ümid devidenlərini qazanmasının yeganə çıxış yolu kimi Qarabağ problemi ətrafında hadisələri dramatikləşdirməkdə görür. İşğalçı dövlətdə keçiriləçək parlament seçkilərinin tam bir il öncə Ermənistan ordusunun fiaskosu ilə nəticələnən bir tarixlə üst-üstə düşməsi Sarkisyan iqtidarını qıcıqlandırır.

Bu gün Moskvaya xidmət edən, Qafqazlarda Rusiyanın forpostu rolunu oynayan Ermənistan və onun indiki hakimiyyətini iqtidarda saxlamaq Kremlin strateji planları çərçivəsindədir. Regionda qüvvələri balanslaşdırmaq siyasəti yürüdən Rusiya öz məkirli siyasətini həyata keçirmək üçün zaman-zaman işğalçı tərəfi ümidləndirərək ona dəstək verməkdədir. Çünki, Moskva yaxşıca başa düşür ki, qüdrətli iqtisadi və hərbi potensiala malik olan Bakı hər an Ermənistani əzmək iqtidarındadır. Ermənistanda seçkiöncəsi Kremlə xidmət edən oyuncaq Sarkisyan hakimiyyətinin hakimiyyətdə qalmasını təmin etmək və Rusiyanın Qafqaz siyasətinə uyğun olmayan qüvvələrin bu ölkədə hakimiyyətə gəlməsini neytrallşdırmaq Moskvanın planları çərçivəsindədir.

Rəsmi Bakı hər zaman Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə tənzimlənməsinin tərafdarı olmuşdur. Lakin, işğalçı Ermənistanın münaqişənin qəbul edimış ümumqaydalar çərçivəsində həlli prossesində qeyri-konstruktiv mövqe tutması rəsmi Bakını güc tətbiq etməyə vadar edir. Ərazilərini işğaldan azad etmək isə hər bir dövlətin süveren hüququdur.

QAZAXISTAN PREZİDENTİ NOBEL SÜLH MÜKAFATINA NAMİZƏD OLDU

Nobel sülh mükafatına Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin namizədliyi irəli sürülüb.

Nazarbayevin namizədliyi üçün ərizəni Sülh Ofisi İnstitutunun direktoru Alin Varye təqdim edib. O, Nazarbayevlə yanaşı, qazax rəssamı Karipbek Kuyukovun da namizədliyini irəli sürüb. Xatırladaq ki, rəssam Karibek Kuyukov iki əldən əlildir və rəsmlərini əsasən dişləri ilə çəkir.

Varye bu şəxslərin namizədliyini nüvə silahının ləğvində göstərdikləri fəaliyyətə görə irəli sürdüyünü bildirib. Varyenin bu addımını artıq britaniyalı siyasətçi Bill Kidd də dəstəkləyib.

ABŞ AVROPADA F-35 TƏYYARƏLƏRİ YERLƏŞDİRMƏYİ PLANLAŞDIRIR

ABŞ hərbi hava qüvvələri (HHQ) komandanlığının başçısı general Herbert Karlayl bəyan edib ki, ABŞ HHQ 2017-ci ilin yazında və ya yayında Avropa ərazisində ilk dəfə özünün beşinci nəsil F-35A qırıcı-bombardmançı təyyarələrini yerləşdirəcək.

O, deyib: "Mən onların yaz-yay aylarında yerləşdirilməsini gözləyirəm. Bizim bu təyyarələri göndərmək istədiyimiz yer yəqin ki, Avropa olacaq. Mən buna görə, onun baş tutacağına əminəm".

Karlaylın sözlərinə görə, ABŞ HHQ-ə məxsus bu döyüş maşınlarının perspektivdə Asiya-Sakit okean regionuna və Yaxın Şərqə göndərilməsi də nəzərdə tutulur.

MOLDOVA PREZİDENTİ ABŞ-A XƏBƏRDARLIQ ETDİ

ABŞ və Rumıniya mənim fəaliyyətimə müdaxilə etməyi dayandırmalıdır.

Bu sözlər Moldova Prezidenti İqor Dodonun ABŞ səfiri Ceyms Pettitu və Rumıniya səfiri Daniel İonitsenə göndərdiyi məktubdandır.

"Moldova müstəqil dövlətdir. Bizim ölkənin Prezident Administrasiyası xaricdən səsləndirilən şərhlərin heç birini qəbul etməyəcək", – deyə o bildirib.

Qeyd edək ki, bu iki ölkənin səfirləri fevralın 26-da birgə bəyanat yaymışdılar. Onlar Moldovanın ABŞ, Bolqarıstan, Makedoniya, Monteneqro, Rumıniya, Serbiya, Sloveniya və Ukraynanın birgə təlimində iştirak etməməyindən təəssüfləndiklərini bildirmişdilər.

Xatırladaq ki, İqor Dodon rusiyayönlü prezidentdir. O, Moldovanın Aİ və NATO ilə yaxınlaşmasının əleyhinə çıxış edir.

BİLL QEYTSDƏN MÜHÜM AÇIQLAMA: «BİOTERROR BİR İL ƏRZİNDƏ 30 MİLYON ADAMI ÖLDÜRƏ BİLƏR»

"Microsoft" şirkətinin banisi Bill Qeyts bioterror mövzusunda önəmli açıqlamalar verib

Terrorçuların istehsal etdiyi bir mikrop il ərzində 30 milyon insanın ölümünə səbəb ola bilər.

Dünyanın ən varlı iş adamı bu barədə Almaniyanın Münhen şəhərində təşkil edilən təhlükəsizlik konfransında məlumat verib. O, bir çox təhlükəsizlik mütəxəssisinin nəzərindən qaçan bu təhdidi gündəmə gətirib.

Bill Qeyts deyib: "Genetika mühəndisliyindən istifadə edilərək virus istehsal edilib. Növbəti hücum və epidemiya bu ola bilər. Bu virus suçiçəyi xəstələyinin sintetik versiyası və ya ölümcül bir epidemiya ola bilər. Belə bir terror hücumu bir ildən də az müddətdə 30 milyon insanın ölümünə səbəb ola bilər. Dünyamız qarşıdakı 10-15 il ərzində belə bir hücumla üz-üzə qala bilər. Bu ciddi bir ehtimaldır".

ƏN BÖYÜK VALYUTA EHTİYATLARINA MALİK ÖLKƏLƏRİN REYTİNQİ AÇIQLANIB

Valyuta ehtiyatı hər bir ölkənin maliyyə sistemi üçün təhlükəsizlik yastığı rolunu oynayır və böhranlı dövrlərdə iqtisadiyyatın geriləməməsi, xalqın rifahının pisləşməməsi üçün etibarlı təminatçı olur.

2016-cı ilin yekunlarına görə, ən böyük valyuta(ABŞ dolları ilə) ehtiyatlarına malik ölkələrin ilk onluğunu təqdim edirik.

Çin - 3,14 trilyon; Yaponiya - 1,21 trilyon; İsveçrə - 681 milyard; Səudiyyə Ərəbistanı - 543 milyard; Tayvan - 433 milyard; Rusiya -385 milyard; Cənubi Koreya - 371 milyard; Braziliya - 365 milyard; Hindistan - 361 milyard ; Sinqapur - 247 milyard.

Xatırladaq ki, siyahıda 19-cu yeri tutan Türkiyə 114 milyard dollar, siyahının 96-cısı olan Azərbaycan isə 3,974 milyard dollar valyuta ehtiyatına ehtiyatına malikdir.

ABŞ YAXIN ŞƏRQDƏ HƏRBİ ƏMƏLİYYATLARA 6 TRİLYON DOLLAR XƏRCLƏYİB

ABŞ Yaxın Şərqdə hərbi əməliyyatlara 6 trilyon dollar xərcləyib, amma heç nəyə nail olmayıb.

Bu barədə ABŞ prezidenti Donald Tramp Ağ Evdə qubernatorlarla görüşü zamanı bildirib.

"Biz Yaxın Şərqdə 17 il döyüşmüşük, 6 trilyon dollar xərcləmişik, amma heç nəyə nail ola bilməmişik. Bu qəbuledilməzdir" – deyə ABŞ-ın yeni prezidenti qeyd edib.

TƏCAVÜZKAR HƏYAT TƏRZİNİN YARATDIĞI ACI GERÇƏKLƏR

Anaxanım VÜQAR

İnsanı digər canlılardan fərqləndirən ən ali göstərici onların düşünmək qabiliyyətləri , hərəkət tənzimləyiciləridir. Paylaşmaq istədiyim mövzu hazırkı dövrdə mövcud olan fərdi davranış qaydaları və onların düzgünlüyü haqqında fikir toplusudur. İnsanların dilə gətiridiyi sözlər və sərgilədiyi hərəkətlər hər nə qədər onların əxlaq, tərbiyə və psixologiyalarının məhsulu olsa da, hər zaman iradi olmur. Hadisələrin sonrakı gedişatında isə genişmiqyaslı fəsadları olan problemə çevrilir.

Mövzumun sonrakı gedişatında əsas məqsədimi, hərəkətlərimizin və sözlərimizin nə üçün bəzən qeyri-iradi olduğunu açıqlayacağam. İndi isə qayıdaq davranış qaydalarımıza.

Belə ki, zənnimcə, insanın dünyaya gəlməsinin ən ali məqsədlərindən biri onun ətrafındakılara nümayiş etdirdiyi və mənəviyyatı əhatə edən davranışdır. Hər bir insan öz davranış tərzi ilə çevrəsində yaşayan insanlara pis və ya yaxşı cəhətdən nümunədir. Və heç bir insan unutmamalıdır ki , bir çox hallarda onun sərgilədiyi davranış yalnız onun həyatına təsir etmir. Həm də onun gələcək nəslinə, ümumi anlamda isə bəşəriyyətə təsir edə bilir.

Bəli, insanların davranış qaydaları onların psixologiyasından, tərbiyəsindən tamamilə asılıdır. Həyatı boyu digərləri ilə söhbət edərkən səsini yüksəltməyən adam, bir çox hallarda sonrakı zamanlarda çalışsa da bunu edə bilmir. Əlbəttə ki, edə bilər, yalnız onun etikası buna icazə vermir.

İnsanların davranış tərzlərinə mədəniyyət, dil, din, o cümlədən dövr xüsusi təsir göstərir.

Son zamanlar dövrdən asılı olaraq insanlar arasında "müasir fikirlilik" termini geniş yayılmışdır. Hər hansı bir yaşayış tərzindən yenisinə keçmək bəzən insanlar arasında iğtişaşa səbəb olur. Müasir insanın malik olmalı göstəricilərindən biri də müstəqil olmasıdır. Bu göstərici ən çox gəncləri cəzb edir. Müstəqil olmaq, müstəqil düşünmək, doğrunu yanlışdan ayıra biləcək qərarlar vermək, ancaq mənsub olduğun cəmiyyət arasında yerini və həddini bilmək, olduğun mühitin qərar və qaydalarına hörmətlə yanaşmaq deməkdir.

Sərnişin nəqliyyat vasitələrində heç kəs oturduğu yeri başqalarına (yaşlı, qadın və.s) vermək məcburiyyətində deyil. Ancaq sağlam psixologiya və düzgün tərbiyə bunu insanlara aşılaya bilir.

İnsanın davranış qaydalarına xüsusi təsir edən, müasir dövrdə insanlar arasında daha kəskin xarakter almış, qlobal məsələ kimi baş qaldıran problem təcavüzkarlıqdır. İnsanların digərlərinə qeyri-iradi davranış tərzləri təcavüz məhsuludur. O müxtəlif proseslər zamanı yarana bilir.

Gündəlik həyatda insanların üzləşdiyi problemlər fərdi həyatlarında təcavüz adı ilə başqalarına nümayiş etdirdikləri davranışa xüsusi təsir göstərir.

Təcavüzkarlıq fenomeni insanın təhlükə kimi qavranılan , fərdin özü haqqında təsəvvürlərinə müvafiq olmayan təcrübəyə cavabdır. Çünki, insan öz keyfiyyətlərinin qəbul edilməsinə xüsusi önəm verir.

İnsanların davranış qaydaları onların doğulub, böyüdüyü mühitdən də çox asılıdır. Müasir psixologiya deyir ki: insan eqoist və ya altruist , ciddi və ya özündən razı, atesit və ya dindar doğulmur, o sonradan belə olur.

Təcavüzkarlığın ən kəskin halı ailədə olanıdır. O, ailə dəyərlərinə yarası çətin sağalan zərbələr vurur. Adətən ailə zorakılığı ailələrin dağılması, uşaqların psixoloji travması, bəzən isə cinayət ilə nəticələnir.

Təcavüzkarlıq və zorakı cəmiyyət içində böyüyən uşaq həyatının sonraki mərhələlərində öz cəmiyyəti kimi yaşamağa davam edir. Bununla belə, ətrafımızdakı hər hansı təcavüzkar cəmiyyət müəyyən müddətdən sonra dəyişilsə, yaxud yox olsa belə təzadları uzun müddət qalır.

Nəzərə alınmalıdır ki, təcavüzkarlığın digər hallarla müqaisədə ən çox zərər verdiyi obyekt öz sahibidir. O, müəyyən müddətdən sonra daha kəskin xarakter alaraq depressiyaya çevrilir. Dünya statistikasına görə hər 40 saniyə içində 1 nəfər özünə qəsd edir. Təcavüzkarlıq, maddi-mənəvi böhran, depressiya, münaqişələr bunun başlıca səbəblərindəndir.

Zənnimcə, problemin qismən həlli yollarından biri kimi nəinki təhsil müəsisələrində və iş yerlərində, o cümlədən ailədə, küçədə, kəndlərdə, bir sözlə insan yaşayan bütün yerlərdə psixoloqların saylarının artırılması, onlara daha çox müraciət edilməsi vacibdir.

Müasir insanın psixoloji problemləri əvvəlki dövrə nisbətən dəfələrlə çoxalmış və yayılmışdır. Bugünkü dünya insana asayiş bəxş etmiş, lakin onun ruhunun rahatlığını əlindən almışdır. Müəyyən zaman keçdikcə problem çıxılmaz xaosa çevrilərək bəşəriyyət üçün yolxucu virus rolunu oynayır.

TÜTÜN MƏMULATLARINDAN İSTİFADƏ QAYDALARI SƏRTLƏŞDİRİLİR

Gürcüstan parlamenti tütün məmulatlarının istifadəsi əleyhinə qanunvericiliyi sərtləşdirən düzəlişlərin müzakirəsinə başlayıb.

"Tütünə nəzarət haqqında" qanunda ediləcək dəyişikliklərə əsasən siqaret çəkmək demək olar ki, şəxsi evlərdən və cəzaçəkmə müəssisələrindən başqa bütün binalarda, eləcə də bütün ictimai nəqliyyat növlərində, təhsil müəssisələrində, kitabxanalarda, gənclik düşərgələrində və 18 yaşdan kiçiklər üçün olan digər binalarda, tibb və əczaçılıq müəssisələrində, stadionlarda, yanacaq doldurma məntəqələrində və tez alışan maddələrin saxlandığı yerlərdə qadağan ediləcək.

Düzəlişlər edildiyi təqdirdə iyulun 1-dən bütün mehmanxanalarda nömrələrin 50%-i siqaret çəkməyənlərə xidmət edəcək.

Qanun layihəsi tütün məhsullarının və akssesuarlarının təhsil müəssisələrinin yaxınlığında, tibb, mədəni, dövlət və idman müəssisələrində, mağazaların uşaq bölmələrində satılmasının qarşısını alacaq.

Tütün məhsullarının satış qaydasını pozanlar 150 laridən 5 min lariyədək cərimələnəcəklər.

Siqaret çəkilməsinin nümayiş etdirilməsi, o cümlədən də teatr tamaşalarında və KİV-də göstərilməsi 10 min lari məbləğində cərimə olunmanı nəzərdə tutur. Hal-hazırda qanun layihəsi parlament komitələrində müzakirə olunur.

CƏMİYYƏTİMİZİN İNSANLIQ OĞRUSU – "ÇAYXANA" MƏDƏNİYYƏTİ

Elnur XƏMMƏDOV

Müzakirə olunan mövzu real faktlara əsaslanır, heç bir xəyali fikirlərdən qaynaqlanmır. Cəmiyyətimizin problemli məsələlər silsiləsini davam etdiririk. O ümidlə ki, kimsə oxuyub nəticə çıxardıb bizlərə qoşulacaq, təkcə özünü deyil ailəsinin, yaxınlarının yaşadığı cəmiyyətdə olan problemləri də nəzərə alacaq.

Fikrimə məqalənin adını açıqlamaqla başlamaq istəyirəm: Cəmiyyətimizin övlad oğrusu, insan oğrusu "çayxana" mədəniyyətidir. Düzgün oxudunuz. Bu çayxana mədəniyyəti yaranandan gənclər evlərindən didərgin düşüblər. Mədəni formada desək, ailədən oğurlanılıblar. Mövzu əsnasında bir çox məsələlərə toxunacağıq.

Başlayaq.

"Qaqa, bir çaynik çay gətir, yaman qızğın söhbət var". Bizim müzakirə edəcəymiz məsələ də nə qızğınlığına görə o caynikdəki çaydan geri qalır, nə də oradakı söhbətdən.

Bir zamanlar "qaqa" sözünü ana, bacı kəlməsi əvəz edirdi, çünki çayın ləzzəti ailədə sevdiyin insanlarla edilən söhbətdədir.

"Çayxana" biznesinin başlanması cəmiyyətdə eyniadlı dırnaqarası mədəniyyətin də yaranmasına gətirib çıxardı. Yaranan mədəniyyət özü ilə birlikdə insan və insanlıq üçün mənfi olan bir çox əlamətlər gətirdi, hansı ki, həm insanın fiziki, həm də ruhi sağlamlığına xətər yetirir. Necə diyərlər "min bir dərdin dərmanı olan" çay, indi özü bir dərdə çevrilib. Çayxanaların yaratdığı dərdlərdən bir neçəsini sadalamaq istəyirəm:

1. gigyenik normalara əməl olunmur;
2. orada olan müzakirələrin coxu yersiz və mənasızdır;
3. insan psixologiyasını pozan oyunların məkanıdır;
4. insanlar və ailələr arasında bağları pozur.

Yuxarıda sadalanan problemlər bəlkə də çoxları üçün adi görünə bilər, amma məhz elə o problemlər insan üçün önəmli olan tərbiyə və fiziki sağlamlığa mənfi təsir göstərir.

Əldən çıxan sağlamlığı çox zaman həkim müalicəsi ilə qaytarmaq olur, amma əldən çıxan tərbiyəni, düşüncə tərzini və əxlaqı geri qaytarmaq çox çətindir, bəzi hallarda isə mümkünsüzdür.

Məni məsələnin ən çox narahat edən tərəfi ailə üzvləri ilə gənclər arasında bağların pozulmasıdır. Gənc çayxanada keçirdiyi zamanı ailəsi ilə keçirsə, müzakirə olunan mövzular ailə ilə bağlı olsa, fikrimcə, daha faydalı olar. Valideyn övladının problemini onun səhvlərini düzəldərək öyrənməməlidir, ailədə içilən çay süfrəsində öyrənməlidir. Mənim valideynlərə və gənclərə müraciətim olacaq.

Hörmətli valideynlər, övladlarınızın ailədə daha çox vaxt keçirməsinə şərait yaradın, onların problemlərini dırnaqarası söhbətdə deyil, ailədə müzakirə etməyə çalışın.

Yaranan problemin bü gün "əşşi, düzələr" deyib üzərindən keçsəniz, sabah ömür boyu həlli olmayan problemlərlə qarşı-qarşıya gələ bilərsiniz.

Gənclər, dünya yaşadığımız kənddən, rayondan, bir az sərt də səslənsə, əyləncə məkanlarından ibarət deyil. Yaşadığımız vətənin dilini öyrənək, öz dilimizi yaddan çıxartmamaq şərti ilə, çünki o bizim açılacaq qapımızın açarıdır. Amma açarın sənin əlində olması o demək deyil ki, düzgün yoldasan. Gəlin, düzgün qapını açaq. Buna da elmlə və elmi özündə saxlayan dinimizlə nail ola bilərik, başqasının dininə toxunmamaq da şərtdir. Bunları etmədikcə sadəcə ayaq üstə gəzən, dövlət vergisini ödəyən bir canlı olaraq qalacayıq, sadəcə bank borclarında, seçki məntəqələrində, polis idarələrində adımız keçəcək.

Sonda üzümü insanlara tutub deyirəm: gəlin, bu problemlərin həlli üçün addım ataq, çayxana kimi yerlərdə bir dənə də olsa kitabxana inşa edək. Qoy ən azı gənclərin seçim imkanı olsun, başqa harada yığışaq deyə sualları olmasın.

KEÇMİŞİ MÜHAKİMƏ EDƏRƏK GƏLƏCƏK QURMAQ OLARMI?

Keçimişmizi mühakimə etməyə, hələ bir qədər də irəli gedib onu ittiham etməyə, nədəsə günahlandırmağa haqqımızın nə dərəcədə çatdığını söyləmək mümkündürmü? Biz bu mövzu ətrafında müzakirə açmaq, bu mövzunu çək-çevir etmək haqqına sahibikmi? Əgər mən durub desəm ki, haqqımız çatır, onda bu fikrin tərəfdarları çırtıq çalıb oynayacaqlar ki, qosqocaman müəllim də bizim mövqeyimizdən çıxış edir, bizi kimi düşünür. Yox, əgər tərsini söyləsəm yenə də məsələ çözülməmiş qalacaq və biz yenə də ətalətlə bitib-tükənməyən mübahisələr edib, bir-birimizi qınayacaqayıq və onsuz da düyünə düşmüş müşkülümüzü daha da qəlizləşdirəcəyik. Nədən ki, biz bəzən, daha doğrusunu desəm, çox vaxt müzakirə etməklə mübahisə etməyi bir-birinə qarışdıraraq ən xırda məişət məsələsini on illər boyu həll etməyə qadir olmadığımızı ortaya qoyuruq.

Tez-tez "Biz belə xalqıq, onsuz da düzələn deyilik" kimi bir fikir səsləndirərək, bunun niyə belə olduğunu açıqlaya bilməyəcək qədər acizlik nümayiş etdiririk. Biz keçmişimizi ittiham etməkdənsə, bu günümüzü qurmaqla, gəlcəyimizi proqnozlaşdırmaqla məşğul olmalı deyilikmi? Düzdür, biz tariximizi öyrənməyə, onu gələcək nəsillərə çatdırmağa borcluyuq və bu mənəvi borcumuzu əcdadlarımızı qınamaqla, onları ittiham etməklə həyata keçirməməliyik. O üzdən ki, keçmiş yaşanmış zamandır, keçilmiş mərhələdir. Onu dəyişmək iqtidarında olmadığımız da məlumdur. Biz tarixdən ibrət götürməliyik, təəssüf ki, bu ibrət dərsini almağa da etinasız yanaşırıq. Babalarımız bu zamanı pis-yaxşı, öz dünyagörüşlərinə uyğun şəkildə yaşayıblar. Biz əslində "nə ediblər" sualına yox, "nə etməliyik" və "nə edəcəyik" suallarına cavab axtarmalıyıq.

İndi bu uzun-uzadı girişi bir kənara qoyaq və elə bilək ki, heç bunları nə mən yazmışam, nə də siz oxumusunuz. Və bir anlıq düşünək ki, biz tariximizi yenicə başlamaq istəyirik. Yenə həmin sual qarşımıza çıxacaq: nə etməliyik, nədən başlamalıyıq, nəyi necə etməliyik...

Məktəblərimizin vəziyyəti göz qabağındadır. Uşaq tərbiyəsinin öhdəsindən gələ bilməyəcək bir quruma çevrilib. Heç məktəb polisinin gəlməsi də təhsil ocaqlarında hər hansı bir pozitiv keyfiyyət dəyişikliyi yarada bilmədi. Təhsil işçilərinin əksəriyyəti mandaturların məktəbə varid olmalarından sonra təlimin keyfiyyətinin daha da pisləşdiyini söyləməkdədirlər. Qaşığın çömçədən böyük olduğu əməli olaraq təsdiqini tapıb. Bəs nə etməli? Çıxış yolu nədədir?

Biz uşaqlarımızın başından keçmişik desəm, əksər valideynlərin heysiyyatına toxunmuş olub, onların qınağına tuş gələrəm. Onların çox yerində deyə biləcəkləri sözləri də fəhm edə bilirəm. Valideynlər təxminən belə deyə bilərlər: biz uşaqlarımızdan ötrü çalışırıq, onlardan ötrü çöllərə düşmüşük, saçımızı onların yolunda süpürgə edirik, özümüz yemirik, onları yediririk və sair bu qəbildən neçə-neçə söz. Bütün bunların doğruluğuna şübhəm yoxdur, bunu mən də təsdiqləyirəm. Təsdiqləməsəm ağzım əyilər. İndi bizim o cəfakeş valideynlərdən mən bir xırda şey soruşmaq istəyirəm. Soruşmaq istəyirəm ki, ay dünyanın ən gözəl valideynləri, siz uşaqlarınızı bilgisayarın, planşetin arxasında əyləşdirməklə onları tərbiyəmi edirsiniz? Soruşmaq istəyirəm ki, sizin uşaqlarınızı çayxanalar, oyun klublarımı tərbiyə etməlidir? Soruşmaq istəyirəm ki, siz sosial şəbəkələrdə vaxt öldürəndə, kiminləsə qeybət qıranda, damino, nərd şaqqıldadanda sizin tifillərinizlə kim məşğul olmalıdır? Axı, sizin boş yerə xərclədiyiniz həmin zaman kəsiyində övladlarınız sizə yüzlərlə sual verib, cavab almalıdırlar. Və sizin onlara verməli olduqlarınızı oğlunuz-qızınız sosial şəbəkələrdən öyrənmək istədikdə nəticə çox pis ola bilər və hər mənada siz onları biryolluq itirə bilərsiniz. Uşaqlarınızı qorumaq sizin ən müqəddəs borcunuzdur. Bəzən öz uşağımız haqqında deyirik : bu kimə oxşadı? Bunun bircə cavabı var: sənə – ata və anasına. Atalar deməyibmi ki, alma budağından gen düşməz. Atalarımız bunu da deyiblər: oğul atasının kövşənini əkər. Bunu da atalarımız deyiblər: anası gəzən ağacı, balası budaq-budaq gəzər.

Bəzən biz sınmış bir əşyamıza, itmiş bir heyvanımıza uşağımızdan daha çox önəm verib, ahvay etmirikmi? Aylarla, bəzən illərlə uşağının nə etdiyi ilə, hara gedib, gəldiyi ilə maraqlanmayan, cocuğunu ibtidai məktəbin birinci sinfinə yerləşdirəndən sonra məktəbin yolunu biryolluq unudan valideynlər bəyəm azdırmı? Uşağı ilə kobud davranan, onu döyən, söyən, vəzifəsini onu geyimlə, yeməklə təmin etməkdə görən, onun sevgisizlikdən qıvrıldığını laqeydliklə seyr edən valideynlər yoxdurmu deyirsiniz? Siz Allah, lütfən, bunu deyib, məni inandırmağa çalışmayın.

Sonda onu qulluğunuza ərz edim ki, biz sözün həqiqi mənasında valideyn olmağa cəhd etməliyik, uşaqlarımıza böyüklük etməyi öyrənməliyik. Onların ən kiçicik uğurlarına belə sevindiyimizi ifadə etməyi unutmamalıyıq. Övladlarımıza vaxt ayırmağı, onlara ən gözəl hisslərimizi verməyi bacarmalıyıq. Onları sözün hər mənasında ən xeyirli işlərə, əməllərə sövq etməli, onlara şərdən uzaq durmağı aşılamalıyıq. Bütün bunları etməmiz üçün çox xırda bir cəhdimiz belə kifayətdir. Ümid edirəm ki, bu yolda heç birimizin xüsusi çətinliyimiz olmayacaq. Bu yolda hamımıza uğurlar diləyib, düşüncələrimə son verirəm.

A. M. ALISOY

YAŞAMAQ ÜÇÜN MƏQSƏD ŞƏRTDİR

Napaleon Bonapart, Uinston Çörçill, Mustafa Kamal Atatürk, Marqaret Tetçer, Angela Merkel və b. kimi adları demək olar ki, hər kəs tanıyır. Adlarını sadaladığımız bu insanları bir şey birləşdirir – öndərlik, liderlik. Öndər doğulmurlar, öndər olurlar.

Bəli, xasiyyətin quruluşunda irs böyük rol oynayır və uşaqlıqdan özünü göstərməyə başlayır. Hər ağıllı insan qarşısına məqsəd qoysa, o məqsədə doğru irəliləyər və nəticədə ona nail olar. Öndər kişi də, qadın da ola bilər. "Bəxti gətirdi" deyə bir şey yoxdur. Onlar öz məqsədlərinə əziyyətlə, zəhmətlə, özünütərbiyə ilə çatıblar.

Görkəmli insanların bioqrafiyasını oxuduqda görürük ki, onların əksəriyyəti sadə, kasıb ailələrdə böyüyüblər.

Sizə bir hadisə haqqında danışmaq istəyirəm: o, balaca oğlan idi, çox kasıb, valideyinləri boşanmış bir ailədə böyümüşdü. Küçədə ayaqqabı təmizləyərək pul qazanırdı. Anası onu zavoda işləməyə göndərdi. 5-ci sinifdə oxuyarkən məktəbdən çıxır, amma oxumağa evdə davam edirdi. Zavodda o, maşının yanında dayanmalı və işə nəzarət etməli idi. 16 yaşı tamam olanda təsadüfən barmağını maşın kəsir və onu işdən qovurlar. O, fəhlələr partiyasında işləməyə gedir. Onun vəzifəsi partiyada günbəgün artır. 10 ildən sonra o, bu partiyanın rəhbəri olur və 3-4 ildən sonra isə prezident seçkilərində iştirak etmək qərarını alır. Ümidini itirmədən 4 dəfə seçkilərdə iştirak edir və 4-cü dəfə qələbə çalaraq Braziliyanın prezidenti olur. Onun adı Luis Silvadır. Luis Silva 2003-2011-ci illərdə Braziliyaya rəhbərlik edib. İnsan istəsə hər şeyə nail ola bilər. Tomas Alva Edison isə deyib: "Dahiliyin sirri əmək, mətanət və ağıldadır".

Öndər olmaq üçün bir gün və ya bir həftə yox, uzun illər boyu dayanmadan çalışmaq, özünü inkişaf etdirmək lazımdır. İndi biz gənclərin inkişaf etməsi üçün çox böyük və əvvəlki illərlə müqayisədə asan üsullarımız var: kitabxanalar, internet, audio-kitablar və s.

Əsl öndər kütlədən yuxarıda ola bilən, hər kəsin nəyə qadir olmasını görüb, üzə çıxarıb ona ilham, motivasiya verəndir. Öndər qulaq asmağı və eşitməyi bacaran şəxsdir. Onlar insanlarla necə ünsiyyət qurmalı olduqlarını, psixologiyanı və bədən dilini öyrənirlər. Öndər düşüncəylə sözün uyğunsuzluğunu anlaya bilir. Onlar yaxşı dost və etibarlı adam olurlar. Həyatda məqsədin yoxdursa,onda məqsədi olan insanlar üçün işləməli olacaqsan.

Şənhəyat SADIQOVA

GÜRCÜSTANDA YUXU VƏ EPİLEPSİYA TİBB MƏRKƏZİ AÇILDI

Xeçinaşvili adına Universitet klinikasının bazasında Gürcüstanda ilk Yuxu və Epilepsiya tibb Mərkəzi açılıb.

Yuxu və Epilepsiya tibb Mərkəzi universitet klinikası ilə Niderlandın Epilepsiya İnstitutunun birgə layihəsi əsasında yaradılıb.

Mərkəzdə yüksək texnoloji qurğuların köməyi ilə yuxu və epilepsiya pozulmalarının diaqnostikasını və müalicəsini həyata keçirmək mümkün olacaq. Diaqnozun təsdiqindən sonra lazım gələrsə pasiyentlər əlavə müayinə və müalicə keçmək üçün Niderlanda göndəriləcəklər.

BAKI-TBİLİSİ-BAKI SÜRƏT QATARINDA GEDİŞ HAQQI AŞAĞI SALINACAQ

1 aprel 2017-ci il tarixindən etibarən 38/37 saylı Bakı-Tbilisi-Bakı sürət qatarında gediş haqqı tarifləri aşağı salınacaq.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, İsveçrə frankının Azərbaycan manatına qarşı bu günə olan məzənnəsinə uyğun olaraq, Bakıdan Tbilisiyə kimi gediş haqqı, yataq dəstinin istifadəsi və komisiyon yığım daxil olmaqla, plaskart vaqonda – 30,16 AZN, kupe vaqonda – 44,50 AZN və SV vaqonda – 83,77 AZN təşkil edirsə, gediş haqları aşağı salındıqdan sonra bu günə olan məzənnə ilə gediş haqqı plaskart vaqonda – 24,54 AZN, kupe vaqonda – 35,32 AZN və SV vaqonda – 58,43 AZN təşkil

edəcək.

İsveçrə frankının Azərbaycan manatına olan məzənnəsi dəyişdiyi təqdirdə gediş haqqı da uyğun olaraq dəyişdiriləcək.

Xatırladaq ki, fevralın 24-də 1 İsveçrə frankı 1,736 AZN, 1 ABŞ dolları isə 1, 7475 AZN dəyərində olub.

2016-CI İLİN NƏTİCƏLƏRİNƏ GÖRƏ YOL-NƏQLİYYAT HADİSƏSLƏRİNDƏ 581 NƏFƏR HƏLAK OLUB

2016-ci ilin nəticələrinə görə yol-nəqliyyat qəzalarında 581 nəfər həlak olub.

DİN-nin məlumatında bildirilir ki, ötən il 6 939 yol-nəqliyyat hadisəsi qeydə alınıb və bu qəzalarda 9 951 nəfər zərər görüb. 2015-ci illə müqayisədə 2016-cı ildə yol-nəqliyyat hadisələrinin sayında artım baş verib. Bu göstərici isə 500-dür.

Xatırladaq ki, 2015-ci ildə cəmi 6 432 yol-nəqliyyat qəzası qeydə alınmış və bu qəzalarda 602 adam həlak olmuş, 9 189 nəfər isə zərər görmüşdü. 2014-cü ildə 511 nəfər həlak olmuş, 8 536 nəfər isə zərər görmüşdü.

QAFQAZIN QARA ZURNASI VƏ AĞ ÇUXASI
(arazbarı)

Sanki uzaqlardan – həm də çox uzaqlardan – qarayazılı Arif Mustafazadənin qaibanə və az-az da qeyri-müntəzir səsi gəlir:

Bir ağır hava çal, qoca zurnaçı,
eydir yavaş-yavaş, çal ağır-ağır...

...zurnaçı cavandır, amma hətta qoca zurnaçı da ona həddi-hidayəti olan həsəd aparır. Böyrümdə kimsə dad-bidad pışıldayır:

– Nəfəsinə qüvvət, ay Qafqaz, bu çal başım barlı barmaqlarına qurban!

Qafqaz – cavan zurnaçının adıdır: Qafqaz Camaloğlu; onunku qara zurnanın müştüyünü adi üfləmək deyil, oyuqlarını adi açıb-bağlamaq deyil, onunku nəfəs verməkdir, diriltməkdir, diri və duru saxlamaqdır!

Amma... orda ayla, illə, burda müxtəsər dillə, belə görünür ki, qara zurnanın bir şirin-şirin, bir həsrət və bəsirətlə "öldürməyi" də var imiş: darvazlı zurnaçı rəhmətlik Kor Alı demiş, "tufarın dağılsın, qara zurna icad eləyən", öz əməlinə əmin olan adam az qalır bu axıb tökülən musiqi ilə "axirət darvazası"nı da könüllü döyə!

Allah nəsib eləyib; Qafqazın Armudlu yaylağında, Əyriqarın, Sənəkuçanın ətəklərinə yaxın çaldığını da görmüşəm. Deyim ki, elə bil dağlar da onun qara zurnasının dəyirmi tağalağının üstündə qərar tutmuşdu. Və ürəkdən inanıram ki, Sınıq körpünün o biri üzündə sizdən də dağların birdən-birə ağır-ağır qol qaldırıb oynadığını, sıx-sıx dumana rəğmən, üstü ilə karvan yeritdiyini görənlər olmuş olar. Axı Vahid Vəhdət dünyasında nələr olmur?..

Amma burasını da deməliyəm: bir vaxt oralarda – Əyriqarın ətəklərinə yaxın Qafqazın böyük qardaşı Araz bərk soyuqlamışdı, onu tələm-tələsik arana gətirəndən bir neçə gün sonra, günlərin bir qubarlı günü, əlimizdə çıraq kimi sönmüşdü: dünyanın məsum və tər çiçək çöhrəli çırağı kimi... Qafqaz indi Əyriqar səmtə baxa-baxa çalırdı, bilmirəm, bəlkə o da bu agah-ahəstə an eynən mənimtək... Arazı xatırlayırdı, özü də qara zurnanın ağzını göylərə sarı tutub çalırdı və düşünürdüm ki, əgər Qafqaz birdən-birə zurnanın ağzını yerə tutsa, sinəsi onsuz da "qəm dəftəri" (ölsün Ələsgərtək qulların, dağlar!) olan yaylaq yeri də yana bilər...

Arada Araz haqqında da söz açmağım o üzdən deyil ki, bəlkə Qafqazın da, kiçik qardaşı Təbrizin də (Təbriz Camaloğlu) çaldıqları elə Araz tərəfdən bu qədər arazbarıdı, bu qədər nisgillidi... Məsələ burasındadır ki, mən onların əmisiyəm, bu bir. İkincisi, yazıçı dostum Əlabbas da deyib ki, ay İbrahimxəlil, bilirsənmi, hələ heç kəs düzilqarlı Əyriqarın havasını bu boyda Bakıya o boyda Borçalıdan Qafqaz və Təbriz qədər gətirməyib mənim üçün...

Qafqazın qara zurnasının – adi qamışın – gücü də elə burasındadır ki, Borçalı Əyriqarı ilə Naxçıvan Əyriqarını, həmin Quba almasıtək yarıalma oxşar minvalla da Başkeçidi Qaraçöplə, Zəncanı Ərzincanla, Təbrizi Tiflislə elə bir göz qırpımındaca qovuşdura bilir!

İndi bəlkə Qafqaz məndən inciyəcək ki (elə Təbriz də), bəs deməzsənmi, əmim məni (bizi) bu qədər tərifləyir, amma mən sidq-ürəkdən istəmirəm ki, Qafqaz məndən iynə ildızı boyda da olsun inciyə! Burası da da var ki, bir əmi olaraq bilirəm ki, Qafqazın "vüqar paltarı" onun ədəbli təvazökarlığındadır; yoxsa paxıllığı çəkilərdi...

...Mayası "Xançobanı"dan, ağ qardan, göy dumandan tutulan, "yumru-yumru qayalar yumruğu" olan Oruc əmim – Allahın rəhmətini diləyirəm – buyururdu ki, oğul, o kəsin ki qaraçuxası yatmayıb, oyaqdır, ona bir xətər yetişməz, buna görə də vaxt var ikən ağ ata, ağ çuxaya yetişmək lazımdır!

...Xatirinizdə qalmış olar: uzaq-uzaq illər bundan öncə Bakı xanı Hüseynqulu xanın qızı, gözəllər gözəli Mahnigar xanım da hər il Novruz bayramında düzənlənən cıdırda birinciliyi qazanan igidə ağ çuxa bağışlayırmış. Hələ o zamandan cavanlar o ağ çuxanın xəyalı ilə yaşayırdılar. İndi bu Novruz ərəfəsində canım-gözüm Bakıdan bu qədər uzaqlarda Qafqazı ağ atda, ağ çuxada görürəm; eynən Əyriqarın zirvəsi rəngində olan çuxada!

Burasını da deyim ki, Qafqaz qara zurnaya könül bağlarıyla bağlanana qədər bizim dastanə Dəllərə qonşu və qardaş Sarallar kəndində aşıq Əmirdən – torpağı nurlu olsun – sazın vaqifi-əsrar sirlərini də öyrənib. Elə ki, Qafqazın qara zurnaya aşiq olmağını da eşitdim, onda ona unudulmaz şairimiz Fikrət Sadığın bircə bəndini – bir "güzgü qəlpəsi"ni göndərdim:

Üç cür olur zurnaçılar:
biri – elə zurna çalar,
biri – belə zurna çalar,
biri də elə-belə zurna çalar.

Qafqaz o vaxtlar nigarançılığımı bircə işarədən anladı; var olsun. Və bu gün adının Həsrət Hüseynov, Rasim Ələsgərov, Ələsgər Şəkili kimi ustad sənətkarlar sırasında çəkilməyi mənə də bərəkəti böyüklüyündə olan başucalığı gətirir. Bir daha əsl izzətin və qüdrətin məxsus olduğu Allaha şükürlər diləyirəm!

P.S.

Uzaq tariximizdə bizə məxsus kişi adları ərəbləşdirilmişdi. Belə ki, əvvəlcə şəxsin öz adı yox, onun kimin atası olduğu, yəni şəxsin oğlunun adı göstərilirdi və oğulun adı qarşısına artırılan "əbu" sözü də bir növ bunun "möhür"ü idi. Məsələn: Əbu Məhəmməd İlyas ibn Yusif Nizami Gəncəvi. Bu misilləmə misala uyğun, mən Qafqaz (Təbriz, Novruz və daha neçələri) kimi can-ciyərimin adının adımdan öndə gəlməyinə bir haqq nidasıtək baxıram və sözümə qüvvət olaraq deyirəm: keçən payız Təbriz səfərimdə "Rəsədxana yüksəkliyi" deyilən yerdə, özü də hər qaraca qarışı ilə uca Yaradanı xatırladan yerdə, Bakıdan gələn iki nəfər çox səmimi qonağa məni "Qafqazın əmisi"tək təqdim etdilər. Dünyanı mənə verdilər sanki!

...Burada son nöqtəni qoymalı oluram; çünki Mədəniyyət televiziya kanalında xalq musiqisi başladı: indi "Qafqazı" havası çalınır...

İBRAHİMXƏLİL

KİTAB OXUMAQ BİR QABİLİYYƏTDİR

Kitab ən yaxşı dostdur. Sıxıldığımızda yanımızdakı tək dostumuz kitabdır. Mədəni insanların ən böyük dostu, köməkçisi və əyləncəsi kitabdır. Kitab oxuyarkən özümüzü başqa bir dünyada taparıq və ya macəralarla dolu bir səfərdə hiss edərik. Kitab oxuyan bu hissi yaxşı bilir. Kitab söz ehtiyatımızı inkişaf etdirir. Yeni sözləri və mənalarını və istifadə edildikləri yerləri öyrənərik. Kitab, zehnimizin və könlümüzün ehtiyaclarını ən kəsə yoldan qarşılayan qiymətli bir xəzinədir. Beynimizi işlədən, təxəyyül sərhədlərini genişləndirən sehirli bir təsiri vardır. Kitab mədəniyyət zənginliyidir.

Kitab oxuyan insanla oxumayan bir ola bilməz. Kitab oxuyan adamın davranışları, rəftarı, danışması ilə mədəniyyətini göstərər. Kitab bir çox şeyi öyrədər bizə. Kitab oxumaq ilə əlaqədar bir sözü də sizin nəzərinizə çatdırmaq istəyirəm: "çox gəzənmi, yoxsa çox oxuyanmı çox bilər ?" Məncə, hər ikisi də… normal bir insanın biliyinin 45%-ni oxuyaraq, 25%-ni dinləyərək, 15%-ni izləyərək, 15%-ni gəzərək öyrənir. Görüldüyü kimi ən çox nisbət oxumağa, yəni kitaba aiddir. Çünki insanlar, xüsusilə şagirdlər kitab oxumağı televzor izləməktən üstün tuturlar. Bəlkə o insanlar da televizor izləyərkən də bir şeylər öyrənirlər. Necə ki, tənbəl bir şagirdin imtahana kopiya hazırlayarkən bir şeylər öyrənməsi kimi…

Oxumaq zövqündən məhrum olan insanlar cəmiyyətdən uzaq qalırlar. Bu insanların fikirləri və danışıqları sadə səviyyədədir. İstədiklərini təsirli və gözəl bir şəkildə izah edə bilməzlər. Yüksək fikirləri anlamaqda çətinlik çəkərlər. Ziyalı kəslərin arasına düşdükləri zaman varlıqlarını eşitdirə bilməzlər. Dərinlikləri yoxdur. Duyğularını belə yerinə görə istifadə edə bilməzlər. Ziyalı insanlar qrupuna girmək, möhkəm bir şəxsiyyətə sahib, seçilən bir insan olmaq, görüş və anlayış qüdrəti, gözəl danışma bacarığı qazanmaq istəyiriksə, kitablar bizim nitq mənbəyimiz olmalıdır.

Oxumaq, zehinimizi bəzəməyə və məsulyətimizi artırmağa kömək edir. Oxumaq insanın qabiliyyətlərini fəallaşdırır. Təcrübə ilə yetişən kəslər, oxumağı xor görərlər. Sadə kəslər ona pərəstişkardırlar. Oxumaq, insana yetkinlik, danışıqda canlılıq, yazmaqda da açıqlıq verər. Tarix kitabları insanı ağıllandırar, riyaziyyat diqqətli edər, fəlsəfə isə dərinləşdirər. Məntiq və natiqlik münaqişələrdə ustalaşdırar, əxlaqda ciddi edər.

"İnsanın oxuduğu şey mənliyinə işləyər." Hətta insan zəkasının da güclənməsi məhz kitab oxumaqla mümkündür. Eynilə bədənin tutulduğu xəstəliklərdən münasib idmanla yaxşı edilə bildiyi kimi. Məsələn, top oyunu böyrək xəstələrinə, ox atmaq ağciyərlə sinəyə, ağır gedişlər mədəyə, ata minmək baş ağrılarına yaxşı gəlir və s. Bu səbəblə bir kimsənin zehini dağınıqdırsa riyaziyyatla məşğul olsun.

Oxuyan insanların fərqli dünyagörüşləri vardır. Eynilə bir kompas kimi insana yol göstərər. Kitab oxumağı sevənlər ümumi mədəniyyət baxımından da üst səviyyədədirlər. Ümumi mədəniyyət, cəmiyyət tərəfindən əhəmiyyət verilən və hörmət edilən bir dəyərdir.

Oxuyan insanlar dünyanı və hadisələri fərqli dünya görüşləriylə qiymətləndirə bilirlər. Danışarkən ya da yazarkən çox çətinlik çəkmirlər. Çünki söz xəzinələri çox genişdir. İnsan oxuduğu hər kitabdan ya da yazıdan nə qədər yeni söz öyrənsə, məlumat xəzinəsi o qədər dolu olar. Oxumanın saysız faydası vardır. Əhəmiyyətli olan bunun dəyərini bilməkdir.

Artıq o, bizim hər yerdə sadiq bələdçimiz olar, həssaslığımız inkişaf edər, eşitdiklərimiz yerinə və zamanına uyğun davranışlar sərgiləməmizə kömək edər. Bir şeyi anlamaqda və anlayışımıza görə hərəkət etməkdə çətinlik çəkmərik. Kitab səhifələrindəki cansız kimi görünən sözlər elə bir qüdrətə malikdir ki, zamanla söz xəzinəmizdə yığılaraq gözəl və asan danışa bilmə xüsusiyyətini qazanmamızı təmin edər. Sözün qısası, kitablar duyğularımıza, fikirlərimizə, hərəkətlərimizə ağılın və düşüncənin bələdçiliyini təmin edən bir mənbədir.

Elsevər ƏHMƏDOV

SÜRÜCÜLÜK VƏSİQƏSİ ALMAQ İSTƏYƏNLƏR İMTAHANI KÜÇƏDƏ VERƏCƏKLƏR

Sürücülük vəsiqəsi almaq istəyən şəxslər cari ilin payızından müvafiq imtahanı real ortamda verməli olacaqlar.

Bir illik fasilədən sonra parlament "Yol qaydaları haqqında" qanuna dəyişikliklərin əlavə edilməsi haqqında müzakirələri davam etdirib.

Parlament əksəriyyətinin lideri Arçil Talakvadzenin verdiyi məlumata görə, yeni dəyişikliklərin müzakirəsi cari ilin yaz aylarında başlayacaq.

Yeni qaydalardan biri odur ki, sürücülük vəsiqəsi almaq istəyənlər imtahanı artıq küçədə, maşınların hərəkət etdiyi yerlərdə verməli olacaqlar.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

28 fevral 2017-ci il
№004 (42)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იუნი ილია" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

ARƏŞ LƏBAF TBİLİSİDƏ KONSERT VERƏCƏK

Məşhur ifaçı, bəstəkar və prodüser Arəş Ləbaf martın 26-da Tbilisidə çıxış edəcək.

Müğənninin konserti yerli vaxtla saat 20-də İdman sarayında baş tutucaq. Arəşlə birlikdə gürcü tamaşaçıları qarşısında iranlı pop-müğənni Sesi Mankanın çıxışı da gözlənilir.

Arəş Ləbaf 1977-ci ildə İranın paytaxtı Tehran şəhərində anadan olub. Babası azərbaycanlı idi. Avroviziya Mahnı Müsabiqəsində çıxış edən ilk iranlı olduğu bildirilir. 10 yaşına qədər Tehranda yaşayıb. Sonra ailəsi ilə birlikdə İsveçin Uppsala şəhərinə, 5 il sonra isə Malmöyə köçüb.

40 yaşlı Arəş hazırda Malmödə yaşayır. Bəstəkar, prodüser və müğənni kimi ixtisaslaşıb. . 2004-cü il sentyabrın 22-də farscadan tərcümədə "Get-get" mənasını verən "Boro-boro" adlı ilk sinqlını çıxarıb. Sinql qısa müddət ərzində İsveçdə birinci yeri tutub. 2005-ci ildə Arəşın öz adını daşıyan "Arash" albomu dünyanın məşhur musiqi kanalı MTV-də ən çox izlənən musiqilər sırasına daxil olub. Müğənninin elektronik musiqini, roku, hip-hopu və balladanı özündə cəmləşdirən "Dünya" layihəsi ona bir az da uğur gətirib. Almaniyanın Kann şəhərində keçirilən festivalın qalibi olan Arəş həmin il Fransada düzənlənən "İnternational Music Market" müsabiqəsində də İsveçin ən yaxşı debütant musiqiçisi seçilib. 2006-cı ildə Rusiyada "Grammys" mükafatını alan Arəş bu ölkədə ən məşhur xarici müğənni hesab edilir. Arəş 2009 Avroviziya Mahnı Müsabiqəsində Aysel Teymurzadə və özünün ifa etdiyi "Always" mahnısının müəllifidir.

2011-ci ilin mayında Arəş uzun müddət sevgilisi olan Behnaz Ənsari ilə ailə qurmuşdur. Onların toyu Dubayda keçilmişdir. 22 aprel 2012-ci ildə bu cütlüyün əkiz uşaqları dünyaya gəlmişdir.

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ MARSDA ŞƏHƏR SALMAĞA BAŞLAYIR

Birləşmiş Ərəb Əmirlikləri bu günlərdə 2117-ci ildə Marsda təxminən Çikaqo böyüklükdə olacaq şəhər salmağa hazırlaşdığını bəyan edib.

Dubayda keçirilən Ümumdünya hökumət sammitində, BƏƏ-nin vitse-prezidenti və baş naziri və Dubay əmiri Şeyx Mohammməd bin Raşid Al Maktuma ölkəsinin gələcək beynəlxalq əməkdaşlıq məqsədilə Marsda mini-dövlət yaratmağa hazırlaşdığını bəyan edib. Al Maktuma bildirib ki, o və qardaşı (ölkənin ilk prezidenti və Abu-Dabinin vəlihəd şahzadəsi Muhammed ben Zaid) Günəş sisteminin mənimsənilməsi üzrə proqrama öz töhfəsini vermək niyyətindədirlər.

Şəhərin layihəsi "Mars 2117" adlanır. Al Maktum da onun salınmasının yaxın gələcəkdə başlanmayacağına açıq şəkildə işarə edib. Tikintinin

detalları hələ açıqlanmasa da, bu ideyanın həyata keçirilməsi üçün BƏƏ-nin ehtiyatda tam bir yüzilliyi var. CNBC televizyası hələlik şəhərin 600 000 nəfərin yaşaması üçün planlaşdırıldığı barədə məlumat yayıb.

TBİLİSİ KÜÇƏLİRƏNDƏ TAKSİ-ELOKTROMOBİLLƏR İŞLƏYƏCƏK

Aprel ayında "Cino feredays" Tbilisiyə 10-12 ədəd taksi-elektromobil gətirmək niyyətindədir. Bu barədə şirkətin baş direktoru Ramaz Mikadze məlumat verib. Onun sözlərinə görə, ayın sonunadək Çinə elektromobillər sifariş ediləcək, ilin sonunadək Tbilisidə 100 taksi elektromobil hərəkət edəcək.

Ramaz Mikadze deyib: "Tbilisi dənizi ətrafında yaşıl şəhər saldığımızdan bu mövzu bizim üçün çox aktualdır və bizə yaxındır. Aydındır ki, bu, şəhər üçün böyük əhəmiyyət daşıyır, çünki şəhər avtomaşınların işlənmiş qazları ilə çox çirklənib".

"Cino feredays"ın baş direktoru taksi-elektromobillərdə xidmətin bazarla rəqabət aparmaq qabiliyyətinə malik olacağını bildirib.

Ramaz Mikadze eloktromobillərin gətirilməsi ilə yanaşı, şirkətin 12 enerji yükləmə stansiyası quraşdıracağını da bəyan edib. Onun sözlərinə görə, bu məsələ artıq şəhər meriyasında baxılır və enerji yükləmə stansiyaları Saburtalo, Vake, Şarden, Vağzal meydanı və digər yerlərdə quraşdırılacaq.

TBİLİSİ ŞƏHƏR-KİTABXANAYA ÇEVRİLƏCƏK

Tbilisi meriyası iki ay ərzində paytaxtda "Şəhər-kitabxana" adlı yeni layihə həyata keçirəcək. Layihə küçələrdə, parklarda və metrolarda elektron kitabların telefonlara, planşetlərə və s. tamamilə pulsuz şəkildə yüklənməsinə imkan verəcək.

Elektron kitabları bütün Tbilisi ərazisində quraşdırılacaq xüsusi lövhəciyi olan QR kod vasitəsilə yükləmək mümkün olacaq. Bunun üçün Saba Reader applikasiyasından istifadə etmək yetərlidir.

"Tbilisi miqyasında 300 nöqtədə orijinal elektron kitabxana stendləri yerləşdirmək nəzərdə tutulur. "Şəhər-kitabxana" özlüyündə Tbilisinin ədəbi bələdçisi olacaq və bu, paytaxtı açıq səma altında kitabxanaya çevirəcək" – meriyanın məlumatında bildirilir.

Layihənin həyata keçirilməsi gürcü yazarların adını daşıyan 50 küçədən başlayacaq. Burada bu yazarların əsərlərindən ibarət elektron kitabxana yerləşdiriləcək.

Sonra elektron kitabxanalar 12 parkda, daha sonra isə metrolarda quraşdırılacaq. Proses aprel ayında başa çatacaq.

GÜRCÜ ALİMLƏRİNİN ƏSƏRLƏRİ ELSEVİER BAZASASINA DAXİL EDİLİB

Gürcüstanın Təhsil və Elm Nazirliyinin məlumatına görə, iki elmi jurnal ilk dəfə olaraq beynəlxalq Elsevier bazasına daxil edilib.

Dünyanın elmi ədəbiyyat üzrə ixtisaslaşmış nəhəng nəşr evi "Andria Razmadze riyaziyyat institutunun əsərləri"ni (Cavaxişvili adına Tbilisi Dövlət Universiteti) və "Aqrar elmlər salnaməsi"ni (Gürcüstan Aqrar Universiteti) öz bazasına salıb. Hər iki əsər ingilis dilində tərtib olunub.

Məlumatda bildirilir: "Gürcü alimlərinin əsərlərinin nəhəng beynəlxalq elmi bazaya daxil edilməsi ilk hadisədir".

Elsevierin nümayəndəliyi bu jurnalları nəşriyyatın müəyyən etdiyi standartlara cavab verdiklərinə görə seçib.

Şota Rustaveli adına Milli Elm Fondu Elsevierlə 2014-cü ildən əməkdaşlıq edir, bunun nəticəsində gürcü alimləri bazanın məlumatlarından rüsumsuz istifadə edirlər.

Elsevier elmi, texniki və tibbi informasiya məhsulları və xidmətləri göstərən şirkətdir. Şirkət böyük elmi cəmiyyətlərlə əməkdaşlıq edir və 2500-dən artıq jurnal və 20 min adda kitab nəşr edir.

Elsevier 180 ölkəyə məxsus 4500 təşkilat və universitetin elmi arxivlərinə girişə malikdir. Onun məhsullarından istifadə edənlərin sayı 30 milyondan artıqdır.

SAĞLAMLIQ MƏQSƏDİLƏ BU İÇKİLƏRDƏN FAYDALANIN

Yazda hər bir insan qış ərzində yığdığı kilolardan tez bir zamanda azad olmaq istəyir. Buna pəhrizdə müəyyən dəyişikliklər etməklə, fiziki hərəkətliliyini artırmaqla nail olmaq mümkündür.

Sizə bu işdə kömək edəcək içki reseptləri təqdim edirik.

Zəncəfilli çay. 3-4 sm uzunluqda olan təzə zəncəfil kökü sürtgəcdən keçirilir, üzərinə 1 stəkan qaynar su tökülür, 30 dəqiqə dəmlənilir. Sonra süzülür və ilıq halda içilir. İçkiyə bir az bal əlavə edə bilərsiniz.

Yaşıl çay. Gün ərzində 3-4 fincan içmək olar.

Darçınlı qatıq. 1 stəkan təzə qatığa 1/3 çay qaşığı üyüdülmüş darçın əlavə edin, qarışdırın və gün ərzində 1 dəfə yeməkdən əvvəl için.

Limonlu su. 1 stəkan ilıq suya 1 ç.q. limon şirəsi əlavə olunur, yeməkdən əvvəl içilir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.